**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİ**

«Təsdiq edirəm»
Tədris məsələləri
üzrə prorektor v.i.e:
dos. Zaur Məmmədov
"13" 02 2026-ci il

# FƏNN SILLABUSU
(işçi tədris planı)

**İxtisasın şifri və adı:** 7001001- Pedaqogika
**İxtisaslaşma:** Tarixin tədrisi
**Fakültə:** Tarix coğrafiya və incəsənət
**Kafedra:** Tarix və onun tədrisi metodikası
**I Fənn haqqında məlumat**
**Fənnin adı:** Tarixin tədrisinin müasir problemləri (İşçi proqram Tarix və onun tədrisi metodikası kafedrasının 13.02.2026-cı il qərarı ilə təsdiq edilmişdir. Protokol №6)
**Kodu:** MİF- B01.01
**Tədris ili:** 2025-2026
**Semestr** II (yaz)
**Tədris yükü:** Cəmi 180 saat. Auditoriya yükü 30 saat. (15 saat mühazirə, 15 saat seminar)
**Təhsilalma forması:** Əyani
**Tədris dili:** Azərbaycan dili
**AKTS üzrə kredit sayı:** 6 kredit
**II. Müəllim haqqında məlumat:**
**Soyadı, adı, ata adı, elmi dərəcəsi, elmi adı: Mühazirə müəllimi:** prof.Arif Məhəmməd oğlu Məmmədov, **seminar müəllimi:** dos.Cəfərov Mayis Vəlimənməd oğlu
**Kafedranın ünvanı:** Lənkəran ş., Ə.Məmmədov küç., 21, 2 saylı korpus
**Məsləhət günləri və saatı:** I gün saat $14^{00}$-$15^{00}$
**E-mail ünvanı:** arif.mammedov61@mail.ru;; mayis1968@mail.ru
**III.Tövsiyə olunan dərslik, dərs vəsaiti və metodik vəsaitlər:**
1.Cəbrayılov İ. H. (2004). Müəllim kadrları hazırlayan ali məktəblərdə Azərbaycan tarixi təliminin müasir problemləri. (PhD diss., Pedagogy). Baku.
2.Cəbrayılov İ. H. (2008). Ali məktəblərdə Azərbaycan tarixi tədrisinin nəzəriyyəsi və təcrübəsi. (Doctor of Sciences diss., Pedagogy). Bakı
3.Cəbrayılov İ.H. (2006). Azərbaycan tarixinin tədrisi metodikası. Baku: Mutarjim Publishing House. 236 s.
4.Əmirov M.M. (2019). Tam orta məktəbdə tarixin fəal interaktiv təlimi metodikası (Ali məktəbin tarix fakültəsi tələbələri üçün dərs vəsaiti). Bakı: ADPU.
5.Xəlilov R. Tarixin təliminin metodikası. Bakı, 2001.
6.Paşayev T.S. (2016). Tarixin tədrisi: tarixilik və müasirlik. Bakı
7.Məmmədova M.S. (2025). Tarixin tədrisi metodikasının aktual problemləri. Azərbaycan müəllimi. Bakı
8.Məlikov R., Nəcəflin, T. (2023). Tarixin interaktiv təlimi və metodik innovasiyalar. NMI. Bakı.
9. Paşayev, T. S. (2018). Tarixin tədrisi: tarixilik və müasirlik. Bakı.
10.Sadöqov H. Zahidov Ə. (2020). Tarix dərslərində biliyin formalaşdırılması. Gəncə
11.Veysova Z. (2017). Fəal və interaktiv təlim: müəllimlər üçün metodik vəsait. Baku: UNICEF.
12.Veysova Z. (2019). Məktəb müəllimləri üçün fəal təlim metodlarına giriş kursu,təlimçilər üçün metodik vəsait. Bakı
13.Yuldoshev S.,Yusupov, S. (2023). Methods of Teaching History: Problems and Solutions. Web of Scientist Journal, Dashkent
14.Zahidov C. Qasımova A. (2018). Sinifdənxaric tədbirlər vasidəsi ilə şagirdlərin tarixi şəxsiyyətlər nümünəsində tərbiyyə olunması. Bakı
**IV Prerekvizit fənlər:** Fənnin tədrisi üçün öncədən başqa bir fənnin tədrisinə zərurət yoxdur.
**V Korekvizit fənlər:** Fənnin tədrisi ilə eyni zamanda başqa fənnin tədrisinə ehtiyac yoxdur.

CamScanner ilə skan edilib

**VI. Fənnin təsviri və məqsədi:** "Tarixin tədrisinin müasir problemləri" fənninin təsviri bu fənnin tarix elminin tədrisində qarşıya çıxan aktual metodoloji, pedaqoji və ideoloji məsələlərin elmi əsaslarla araşdırılmasına yönəldiyini əks etdirir. Fənn tarixin tədrisində istifadə olunan ənənəvi və müasir yanaşmaların müqayisəli təhlilini apararaq, təhsil prosesində səmərəliliyin artırılmasını hədəfləyir. Tədris zamanı tarix fənninin məzmununun formalaşdırılması, tarixi biliklərin şagird və tələbələrə ötürülməsi üsulları, eləcə də təlim nəticələrinin qiymətləndirilməsi mexanizmləri öyrənilir. Bu fənn qloballaşma, rəqəmsallaşma və informasiya texnologiyalarının tarixin tədrisinə təsirini xüsusi diqqət mərkəzinə alır. Elektron resurslardan istifadə, rəqəmsal tarix, interaktiv tədris metodları və tənqidi düşüncənin inkişaf etdirilməsi əsas mövzular sırasındadır. Eyni zamanda, tarixi yaddaş, milli kimlik və tarix tədrisində obyektivlik problemləri elmi baxımdan təhlil olunur. Nəticə etibarilə, "Tarixin tədrisinin müasir problemləri" fənni gələcək tarix müəllimləri və tədqiqatçılar üçün nəzəri biliklərlə yanaşı, praktik bacarıqlar formalaşdıraraq, müasir təhsil tələblərinə cavab verən peşəkar hazırlığı təmin edir.

"Tarixin tədrisinin müasir problemləri" fənninin məqsədi tarix elminin tədrisi prosesində yaranan aktual metodoloji, pedaqoji və nəzəri məsələlərin elmi əsaslarla öyrənilməsinə nail olmaqdır:

- Bu fənn müasir cəmiyyətin sosial-siyasi, mədəni və informasiya mühitində tarix tədrisinin qarşılaşdığı çətinlikləri təhlil etməyi və onların həlli yollarını müəyyənləşdirməyi hədəfləyir.
- Fənnin əsas məqsədlərindən biri tarixi biliklərin ötürülməsində obyektivlik, elmi dürüstlük və tənqidi düşüncə prinsiplərinin qorunmasını təmin etməkdir.
- Fənn çərçivəsində tarix tədrisində istifadə olunan ənənəvi və innovativ metodların müqayisəli təhlili aparılır, rəqəmsal texnologiyaların, elektron resursların və interaktiv təlim vasitələrinin tədris prosesinə inteqrasiyası öyrənilir.
- Bununla yanaşı, tarixi yaddaşın formalaşması, milli kimliyin qorunması və qloballaşma şəraitində tarixin tədrisinin ideoloji problemləri elmi baxımdan araşdırılır.
- "Tarixin tədrisinin müasir problemləri" fənni gələcək tarix müəllimləri və tədqiqatçılarda metodoloji savadlılıq, analitik yanaşma və pedaqoji məsuliyyət formalaşdırmağı qarşıya məqsəd qoyur.
- Nəticə etibarilə, bu fənn müasir təhsil sisteminin tələblərinə uyğun olaraq tarix tədrisinin keyfiyyətinin yüksəldilməsinə və peşəkar kadr hazırlığının təmin olunmasına xidmət edir.

**VII. Davamiyyətə verilən tələblər:** Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı LDU-nun Elmi Şurasının 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**VIII. Qiymətləndirmə:** Fənn üzrə tələbələrin biliyi 100 ballıq sistemlə qiymətləndirilir. Yəni tələbənin fənn üzrə toplaya biləcəyi balın maksimum miqdarı 100-ə bərabərdir. Bu balın yarısı (50 balı) tələbənin semestr müddətində fəaliyyətinin nəticəsinə (cari qiymətləndirmə), digər yarısı isə (digər 50 balı) imtahanın nəticəsinə (aralıq qiymətləndirmə) görə verilir.

Fənn üzrə cari qiymətləndirmənin nəticəsinə görə verilən maksimum 50 bala aşağıdakılar daxildir:

- 20 bal - seminar dərslərində fəaliyyətinə görə;
- 30 bal - kollokviumların nəticələrinə görə.

Qiymətləndirmə zamanı LDU-nun Elmi Şurasının 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq qiymətləndirmə meyarları nəzər alınır.

İmtahanda qazanılan balların maksimum miqdarı 50-dir. İmtahan yazılı şəkildə aparılır və imtahan biletinə bir qayda olaraq fənn üzrə tədris olunan mövzulara aid 5 sual daxil edilir. Hər sual maksimum 10 bal olmaqla qiymətləndirilir (aşağıda qeyd olunan qiymət meyarına əsasən) ki, bu da toplamda fənn üzrə aralıq qiymətləndirmənin nəticəsinə görə verilən maksimum 50 balı təşkil edir.

Qiymət meyarları aşağıdakılardır:

- **10 bal** - tələbə keçilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir;
- 9 bal - tələbə keçilmiş materialı tam başa düşür, cavabı dəqiqdir və mövzunun məzmununu tam açа bilir;
- 8 bal - tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;
- 7 bal - tələbə keçilmiş materialı yaxşı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir;
- 6 bal - tələbənin cavabı əsasən düzgündür;
- 5 bal - tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir;

CamScanner ilə skan edilib

- 4 bal - tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;
- 3 bal - tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;
- 1-2 bal - tələbənin mövzudan qismən xəbəri var;
- 0 bal - cavab yoxdur.

Tələbənin fənn üzrə aralıq qiymətləndirmə balının (imtahanda topladığı balın) miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin fənn üzrə aralıq qiymətləndirmə balı cari qiymətləndirmə balına (semestr ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala) əlavə olunmur.

Fənn üzrə cari və aralıq qiymətləndirmənin ümumi nəticəsinə görə tələbənin biliyi yekun olaraq aşağıdakı kimi qiymətləndirilir:

| Bal aralığı (göstərilən ballar daxil olmaqla) | Hərflə işarəsi | Sözlə yazılışı |
|---|---|---|
| 91-100 bal | A | əla |
| 81-90 bal | B | çox yaxşı |
| 71-80 bal | C | yaxşı |
| 61-70 bal | D | kafi |
| 51-60 bal | E | qənaətbəxş |
| 51-baldan aşağı | F | qeyri-kafi |

**IX.Davranış qaydalarının pozulması:**

Tələbə Universitetin daxili intizam qaydalarını pozduqda onun barəsində mövcud qanunvericilik çərçivəsində müvafiq tədbir görüləcəkdir.

**X.Təqvim mövzu planı:**

Mühazirə 15 saat; Seminar 15 saat; **Cəmi: 30 saat.**

| № | Tədris olunan mövzuların məzmunu | Saat | | Tarix |
|---|---|---|---|---|
| | | Mühazirə | Seminar | |
| 1. | **MövzuNº1.Tarixin tədrisinin məqsədləri və pedoqoji əsasları**<br>1.Tarixin tədrisinin ümumi məqsəd və funksiyaları; tarixi biliklərin rolu.<br>2.Tarixin tədrisinin pedaqoji əsasları və elmi-nəzəri çərçivəsi.<br>3.Müasir təhsil standartlarında tarixin yeri və təhsil məqsədləri.<br>4.Milli və bəşəri dəyərlərin sintezi: millilik və bəşərilik məsələləri.<br>5.Akademik tarix tədrisinin etik və metodoloji prinsipləri (elmilik, obyektivlik, humanistlik).<br>**Mənbə:** [4, 7, 8, 10, 12.14] | 2 | 2 | |
| 2. | **MövzuNº 2. Tarixi düşüncə və tarixilik prinsipi**<br>1.Tarixi təfəkkürün formalaşması və tədrisdə tarixin təhlili.<br>2.Tarixi şüurun didaktikası: tarixilik və müasirlik münasibəti.<br>3.Tarixi biliklərin strukturlaşdırılması və şagirdlərin anlaması.<br>4.Tarixi mənbələrlə iş – elmi mənbənin məzmunu və qiymətləndirilməsi.<br>5.Tarixi qavrama problemləri və tarixin eleqant təqdimatı.<br>**Mənbə:** [1, 3, 5, 6, 9, 10, 12] | 2 | 2 | |
| 3. | **MövzuNº 3. Tədris proqramları, dərsliklər və kurikulum problemləri**<br>1.Tarixin tədris proqramlarının ümumi struktur və məzmunu.<br>2.Müasir kurikulum standartları və onların tənqidi qiymətləndirilməsi.<br>3.Dərsliklərin rolu və onların metodoloji zəif cəhətləri. | 2 | 2 | |

CamScanner ilə skan edilib

| | | | | |
|---|---|---|---|---|
| | 4.Milli tarix və dünya tarixinin inteqrasiyası.<br>5.Tarixin tədrisində millilik-bəşərilik balansının saxlanılması.<br>**Mənbə:** [2, 4, 7, 8, 9, 11.13] | | | |
| 4. | **MövzuNº 4. Təlim texnologiyaları və innovasiyalar**<br>1.Klassik metodlardan interaktiv təlimə keçid: nəzəri baxış.<br>2.İnnovativ təlim texnologiyaları və tarixin tədrisində tətbiqi.<br>3.Rəqəmsal vasitələr və tarixin vizual məzmunla öyrədilməsi.<br>4.İnteraktiv metodların didaktik təsiri və qiymətləndirilməsi.<br>5.Texnologiyanın problemləri: resurs çatışmazlığı və infrastruktur.<br>**Mənbə:** [4, 7, 8, 10, 11.14] | 2 | 2 | |
| 5. | **MövzuNº 5. Müəllim hazırlığı və peşəkar inkişaf problemləri**<br>1.Tarix müəlliminin peşəkar kompetensiyaları: nəzəri və praktik aspektlər.<br>2.Müasir müəllim hazırlığında metodik boşluqlar.<br>3.İnkişaf və sertifikasiya sistemləri.<br>4.Təcrübə və təcrübəsizlik arasında tarazlıq problemləri.<br>5.Müəllimlərin tədris keyfiyyətinin qiymətləndirilməsi strategiyaları.<br>**Mənbə:** [1, 2, 5, 8, 10, 11.14] | 2 | 2 | |
| 6. | **MövzuNº 6. Tarixin tədrisində məzmunca çoxluq və çoxhissəlilik problemləri**<br>1.Xüsusilə müasir dövrdə mübahisəli və çətin tarixi mövzuların tədrisi.<br>2.Multikultural yanaşma və münaqişə tarixinin pedaqogikası.<br>3.Tarixin "mübahisəli" mövzularla işlənməsi və kritik baxış.<br>4.Məzmunun inklüzivliyi və gender, irq, sosial təbəqələr kimi məsələlər.<br>5.Tarixin interpretasiyası və obyektiv müəllim təqdimatı.<br>**Mənbə:** [3, 4, 7, 8, 10, 11.13] | 2 | 2 | |
| 7. | **MövzuNº 7. Tarixin tədrisində qiymətləndirmə və dəyərləndirmə problemləri**<br>1.Tarixi bilik və bacarıqların qiymətləndirilməsi prinsipləri.<br>2.Məktəb qiymətləndirmə sistemləri və onların tənqidi.<br>3.Formativ və summativ qiymətləndirmənin tarixin tədrisində rolu.<br>4.Rəqəmsal qiymətləndirmə alətləri və ölçmə problemləri.<br>5.Təlim nəticələrinin beynəlxalq müqayisəsi və standartlar.<br>**Mənbə:** [1, 4, 7, 8, 10, 11.12] | 2 | 2 | |
| 8. | **MövzuNº 8. Tarixin tədrisinin gələcək perspektivləri və inkişaf modelləri**<br>1.Yeni pedaqoji yanaşmalar və tarixin tədrisində perspektiv istiqamətlər.<br>2.Qlobal təcrübələr: Beynəlxalq nümunələr və müqayisələr.<br>3.Elmi tədqiqat və müəllim təcrübəsinin əlaqəsi. | 1 | 1 | |

CamScanner ilə skan edilib

| | | | | |
|---|---|---|---|---|
| | 4.Rəqəmsallaşma və tarixin tədrisi üçün yeni vasitələr.<br>5.Siyasət və təhsil: tarixin tədrisinə dövlət və icma təsirləri.<br>**Mənbə:** [2, 4, 5, 9, 13.14] | | | |
| **Cəmi** | | **30 saat** | **30 saat** | |

**XI. Fənn üzrə tələblər:** "Tarixin tədrisinin müasir problemləri" fənni üzrə tələblər bu sahədə nəzəri bilik və praktik bacarıqlara yiyələnməsini nəzərdə tutur. Tələbələr tarix tədrisinin əsas metodoloji yanaşmalarını, müasir pedaqoji konsepsiyaları və təlim strategiyalarını mənimsəməlidir. Onlar tarixi mənbələri tənqidi şəkildə təhlil etmək, informasiya texnologiyalarından və elektron resurslardan səmərəli istifadə etmək bacarığına malik olmalıdırlar. Eyni zamanda, tələbələr tarix tədrisində obyektivlik, elmi etikaya riayət və milli-tarixi dəyərlərə hörmət prinsiplərini əsas götürməlidir. Fənn üzrə tələblər analitik düşüncə, müstəqil araşdırma aparmaq və müasir təhsil mühitinə uyğun dərs modeli qurmaq səriştələrinin formalaşdırılmasını da əhatə edir.

**XII.Fənnin tədrisi üçün nəzərdə tutulan tədris və öyrənmə metodları:**

- mühazirə, seminar, praktiki tapşırıqlar
- təqdimat və müzakirə
- debat
- müstəqil iş/araşdırma

**XIII. Fənn üzrə təlimin nəticələri:**

- "Tarixin tədrisinin müasir problemləri" fənni üzrə təlimin nəticələri tarix tədrisi sahəsində tələbələrin əldə etməli olduqları bilik, bacarıq və səriştələrin formalaşmasını əhatə edir.
- Təlimin sonunda tələbələr tarixin tədrisində mövcud olan əsas metodoloji yanaşmaları, müasir pedaqoji konsepsiyaları və didaktik prinsipləri elmi əsaslarla izah etməyi bacarmalıdırlar. Onlar tarix fənninin məzmununun formalaşdırılması, dərs prosesinin planlaşdırılması və təlim nəticələrinin qiymətləndirilməsi mexanizmlərini dərindən mənimsəyəcəklər.
- Fənn üzrə təlim nəticələri tələbələrin tarixi mənbələrlə işləmək, onları tənqidi təhlil etmək və obyektiv nəticələr çıxarmaq bacarığını inkişaf etdirir.
- Eyni zamanda, tələbələr rəqəmsal texnologiyalardan, elektron dərsliklərdən və interaktiv təlim vasitələrindən istifadə etməklə müasir dərs modelləri hazırlamağı öyrənirlər. Qloballaşma şəraitində tarixi yaddaşın qorunması, milli kimliyin formalaşdırılması və ideoloji təsirlərin təhlili də təlim nəticələri sırasında mühüm yer tutur.
- Bu fənn tələbələrdə analitik düşüncə, elmi araşdırma aparmaq, pedaqoji məsuliyyət və peşəkar etik davranış vərdişləri formalaşdırır.
- Nəticə etibarilə, əldə olunan təlim nəticələri gələcək tarix müəllimləri və tədqiqatçılar üçün müasir təhsil sisteminin tələblərinə cavab verən peşəkar hazırlığı təmin edir.

**XIV. Tələbələrin fənn haqqında fikrinin öyrənilməsi:**

---

---

**XV. Kollekvium sualları:**

**I Kollekvium sualları:**

1.Tarixin tədrisinin ümumi məqsəd və funksiyaları; tarixi biliklərin rolu.
2.Tarixin tədrisinin pedaqoji əsasları və elmi-nəzəri çərçivəsi.
3.Müasir təhsil standartlarında tarixin yeri və təhsil məqsədləri.
4.Milli və bəşəri dəyərlərin sintezi: millilik və bəşərilik məsələləri.
5.Akademik tarix tədrisinin etik və metodoloji prinsipləri (elmilik, obyektivlik, humanistlik).
6.Tarixi təfəkkürün formalaşması və tədrisdə tarixin təhlili.
7.Tarixi şüurun didaktikası: tarixilik və müasirlik münasibəti.
8.Tarixi biliklərin strukturlaşdırılması və şagirdlərin anlaması.
9.Tarixi mənbələrlə iş – elmi mənbənin məzmunu və qiymətləndirilməsi.
10.Tarixi qavrama problemləri və tarixin eleqant təqdimatı.

**II Kollekvium sualları:**

1.Tarixin tədris proqramlarının ümumi struktur və məzmunu.
2.Müasir kurikulum standartları və onların tənqidi qiymətləndirilməsi.
3.Dərsliklərin rolu və onların metodoloji zəif cəhətləri.
4.Milli tarix və dünya tarixinin inteqrasiyası.
5.Tarixin tədrisində millilik-bəşərilik balansının saxlanılması.

CamScanner ilə skan edilib

6.Klassik metodlardan interaktiv təlimə keçid: nəzəri baxış.
7.İnnovativ təlim texnologiyaları və tarixin tədrisində tətbiqi.
8.Rəqəmsal vasitələr və tarixin vizual məzmunla öyrədilməsi.
9.İnteraktiv metodların didaktik təsiri və qiymətləndirilməsi.
10.Texnologiyanın problemləri: resurs çatışmazlığı və infrastruktur.

**XVI. İmtahan sualları:**

1.Tarixin tədrisinin ümumi məqsəd və funksiyaları; tarixi biliklərin rolu.
2.Tarixin tədrisinin pedaqoji əsasları və elmi-nəzəri çərçivəsi.
3.Müasir təhsil standartlarında tarixin yeri və təhsil məqsədləri.
4.Milli və bəşəri dəyərlərin sintezi: millilik və bəşərilik məsələləri.
5.Akademik tarix tədrisinin etik və metodoloji prinsipləri (elmilik, obyektivlik, humanistlik).
6.Tarixi təfəkkürün formalaşması və tədrisdə tarixin təhlili.
7.Tarixi şüurun didaktikası: tarixilik və müasirlik münasibəti.
8.Tarixi biliklərin strukturlaşdırılması və şagirdlərin anlaması.
9.Tarixi mənbələrlə iş – elmi mənbənin məzmunu və qiymətləndirilməsi.
10.Tarixi qavrama problemləri və tarixin eleqant təqdimatı.
11.Tarixin tədris proqramlarının ümumi struktur və məzmunu.
12.Müasir kurikulum standartları və onların tənqidi qiymətləndirilməsi.
13.Dərsliklərin rolu və onların metodoloji zəif cəhətləri.
14.Milli tarix və dünya tarixinin inteqrasiyası.
15.Tarixin tədrisində millilik-bəşərilik balansının saxlanılması.
16.Klassik metodlardan interaktiv təlimə keçid: nəzəri baxış.
17.İnnovativ təlim texnologiyaları və tarixin tədrisində tətbiqi.
18.Rəqəmsal vasitələr və tarixin vizual məzmunla öyrədilməsi.
19.İnteraktiv metodların didaktik təsiri və qiymətləndirilməsi.
20.Texnologiyanın problemləri: resurs çatışmazlığı və infrastruktur.
21.Tarix müəlliminin peşəkar kompetensiyaları: nəzəri və praktik aspektlər.
22.Müasir müəllim hazırlığında metodik boşluqlar.
23.Təcrübə və təcrübəsizlik arasında tarazlıq problemləri.
24.Xüsusilə müasir dövrdə mübahisəli və çətin tarixi mövzuların tədrisi.
25.Multikultural yanaşma və münaqişə tarixinin pedaqogikası.
26.Məzmunun inklüzivliyi və gender, irq, sosial təbəqələr kimi məsələlər.
27.Tarixin interpretasiyası və obyektiv müəllim təqdimatı.
28.Tarixi bilik və bacarıqların qiymətləndirilməsi prinsipləri.
29.Məktəb qiymətləndirmə sistemləri və onların tənqidi.
30.Rəqəmsal qiymətləndirmə alətləri və ölçmə problemləri.
31.Təlim nəticələrinin beynəlxalq müqayisəsi və standartlar.
32.Yeni pedaqoji yanaşmalar və tarixin tədrisində perspektiv istiqamətlər.
33.Qlobal təcrübələr: Beynəlxalq nümunələr və müqayisələr.
34.Elmi tədqiqat və müəllim təcrübəsinin əlaqəsi.
35.Siyasət və təhsil: tarixin tədrisinə dövlət və icma təsirləri.

**"Tarixin tədrisinin müasir problemləri"** fənninin sillabusu **7001001-Tarixin tədrisi** ixtisaslaşmasının təhsil proqramı, tədris planı və İşçi proqram (Tarix və onun tədrisi metodikası kafedrasının 13.02.2026-cı il qərarı ilə təsdiq edilmişdir) əsasında tərtib olunmuşdur.
Sillabus **"Tarix və onun tədrisi metodikası"** kafedrasında müzakirə edilərək təsdiq edilmişdir **(13 fevral 2026-cı il, protokol № 6).**

**Mühazirə müəllimi:** ______________ **prof. A.M.Məmmədov**

**Seminar müəllimi:** ______________ **dos. M.V.Cəfərov**

**Kafedra müdiri :** ______________ **dos. K.F.Mahmudov**

CamScanner ilə skan edilib